# Azərbaycanı aqrar ölkədən böyük sənaye dövlətinə çevirən lider

***Azərbaycan xalqının ümummilli lideri kimi yüksək fəxri ad qazanmış Heydər Əliyev bütün şüurlu həyatını doğma ölkəsinin və xalqının inkişafına həsr etmiş tarixi şəxsiyyətdir. Onun Azərbaycanda iki dəfə hakimiyyətə gəlməsi ölkənin, demək olar ki, başdan-başa dəyişməsi, yeniləşməsi, tərəqqi yoluna çıxması ilə yadda qalıb. Ölkəmiz ulu öndərin böyük siyasi təcrübəsi, yenilməz əzmi və iradəsi sayəsində istər 1969-1982-ci illəri əhatə edən birinci dövrdə, istərsə də 1993-2003-cü illərdəki prezidentliyi dövründə böyük uğurlar əldə edib. Bütün bunlara Heydər Əliyev 80 illik həyatında keçdiyi böyük yol, qazandığı zəngin təcrübə və təbii ki, yorulmaq bilmədən çalışması ilə nail olub.***

Heydər Əliyevin həyatı və fəaliyyəti hər bir müasir Azərbaycan gənci üçün örnəkdir. Tərcümeyi-halından məlum olduğu kimi, Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. Lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. O, 1941-1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ilin may ayından Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında çalışıb. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil alıb. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bir sıra vəzifələrdə işləyib, 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi



seçilib. Ümummilli lider 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub. 1976-cı ildə o, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilib. Həmin il Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.

1969-cu il iyulun 14-ü Azərbaycan tarixində xüsusi yer tutur. Həmin gün Azərbaycan KP MK-nın birinci katibi seçilmiş Heydər Əliyev aqrar ölkə olan Azərbaycanın həyatında dönüş yaradıb, yeni inkişaf dövrünün başlanğıcını qoyub. Paytaxt Bakıda o dövr üçün nadir müəssisələr - Məişət Kondisionerləri, Dərin Dəniz Özülləri zavodları, “Gülüstan” sarayı, indiki Heydər Əliyev sarayı kimi yaraşıqlı binalar tikilib. Əhmədli, Günəşli yaşayış massivlərinin, mikrorayonların salınması əhalinin mənzil probleminin həllinə yol açıb. Eyni zamanda, kənd təsərrüfatı dirçəldilib, pambıq, üzüm, tərəvəz istehsalı dəfələrlə artıb. Buna adekvat olaraq, kənd əhalisinin güzəranı yaxşılaşıb.

1969-1982-ci illəri haqlı olaraq Azərbaycanın intibah dövrü adlandırırlar. Həmin dövrdə Azərbaycan aqrar ölkədən böyük sənaye ölkəsinə çevrilib. Bakıda, eləcə də rayonlarda yeni sənaye müəssisələri yaradılıb. Ölkə neftin monopoliyasından çıxarılaraq maşınqayırma, energetika, kimya sənayesi, tikinti meydanına çevrilib. Heydər Əliyev SSRİ rəhbərliyi ilə razılaşdıraraq, ən böyük sənaye müəssisələrinin Azərbaycana gətirilməsinə nail olub. Bakı Məişət Kondisionerləri zavodu buna nümunə ola bilər. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən də öz nüfuzundan və yüksək vəzifənin imkanlarından istifadə edərək bir sıra ittifaqmiqyaslı layihələri Bakıya yönəldib.

Məhz onun uzaqgörən siyasətinin nəticəsidir ki, Azərbaycan tarixi torpaqlarını erməni işğalından azad edə bildi. Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Xalqımızın 30 illik yurd həsrətinə, torpaq nisgilinə son qoyuldu. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu Zəfərə gedən yolun əsasında Azərbaycanın böyük oğlu, dünya şöhrətli siyasi xadim, dahi Heydər Əliyevin ölməz ideyaları, müzəffər siyasi xətti dayanır.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 14 iyul.- S.4.